# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNİN QIZIL BÖCƏKLƏRİ (COLEOPTERA: BUPRESTIDAE) KOLLEKSİYA VƏ ƏDƏBİYYAT MƏLUMATLARINA ƏSASƏN

**Ellada Hüseynova**

*AMEA-nın Zoologiya İnstitutu*

Qızıl böcəklər (Coleoptera: Buprestidae) həmişə tədqiqatçıların və kolleksiyaçıların diqqətini çəkən böcək fəsilələrindən biridir. Bunun səbəbi, bir tərəfdən gözəl xarici görkəmə, parlaq rəngə sahib olmaları və digər tərəfdən bitkilərlə yaxın trofik əlaqələrə görə fitofaglar kimi əhəmiyyət kəsb etmələri və bəzilərinin bir çox meyvə və meşə ağaclarının zərərvericiləri olmasıdır.

Qarabağ bölgəsinin floristik kompleksinin özəlliyi burada zəngin entomofaunanın, xüsusən də qızıl böcəklərin faunasının yaranmasına səbəb olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası Zoologiya İnstitutunun kolleksiyasında respublikanın bu bölgəsinin qızıl böcəkləri 4 yarımfəsilə və 7 cinsə aid 9 növlə təmsil olunur: *Julodis andreae andreae* A. G. Olivier, 1790, *Capnodis cariosa cariosa* Pallas, 1776, *Perotis lugubris longicollis* Kraatz, 1880, *Sphenoptera* mesopotamica Marseul, 1865, *Sphenoptera tamarisci beckeri* Dohrn, 1866, *Sphenoptera tenax* Jakovlev, 1902, *Anthaxia hungarica sitta* Küster, 1852, *Coraebus rubi* Linnaeus, 1767, *Meliboeus robustus* Küster, 1852. Etiketlər XIX əsrin sonu XX əsrin əvvəllərinə aid olub, material toplanışı Horadiz, Şuşa mahalı, Hadrud, Fizuli rayonu ərazilərindən Boqaçev, Vinovski, Tertışnikov, Dobrovjanski, Yakovleva və b. tərəfindən aparılmışdır.

Gürcüstan Milli muzeyinin əməkdaşları tərəfindən bizə entomoloji kolleksiya üzərində işləmək imkanı verilmiş və kolleksiyada Qarabağ bölgəsinə aid 3 növ qeydə alınmışdır: *Julodis andreae andreae* A. G. Olivier, 1790, *Sphenoptera tamarisci beckeri* Dohrn, 1866, *Sphenoptera scovitzii scovitzii* Faldermann, 1835. Bu qrup üzrə material toplanışı Köninq, Satunin, Zaytsev və b. tərəfindən XX əsrin əvvəllərində aparılmışdır.

XX əsrin 60-80-ci illərində N.H.Səmədov tərəfindən Azərbaycanda 28 növ zərərverici böcəyin olduğu qeyd edilir ki, bunların da 10-u Qarabağ bölgəsinə aiddir: *Cyphosoma tataricum* Pallas, 1771, *Capnodis tenebrionis* Linnaeus, 1761, *Capnodis miliaris miliaris* Klug, 1829, *Capnodis cariosa cariosa* Pallas, 1776, *Perotis lugubris longicollis* Kraatz, 1880, *Lamprodila bella* Gory, 1840, *Eurythyrea* quercus Herbst,1780, *Anthaxia cichorii* A. G. Olivier, 1790, *Anthaxia bicolor bicolor* Faldermann, 1835, *Anthaxia* tractata Abeille de Perrin, 1901.

Təəssüflər ki, Qarabağ ərazisinin işğalı ilə əlaqədar olaraq sonrakı illərdə bizim tərəfimizdən tədqiqatlar yalnız 2012-2013-cü illərdə aparılmış və yalnız Fizuli və Ağdam rayonlarının işğal olunmamış ərazilərini əhatə etmişdir. Tədqiqat nəticəsində 3 növ, *Anthaxia cichorii* A. G. Olivier, 1790, *Coraebus rubi* Linnaeus, 1767, *Meliboeus robustus* Küster, 1852 qeydə alınmışdır.

Qarabağ bölgəsinin qızıl böcəklər faunası üzərində hərtərəfli tədqiqatların aparılması vacibdir.